İCBARİ TİBBİ SIĞORTA




# İCBARİ TİBBİ SIĞORTA HAQLARI BARƏDƏ BUNLARI BİLMƏK VACİBDİR!

# İcbari tibbi sığorta nədir?

İcbari tibbi sığorta sığortaolunanların* Xidmətlər Zərfi çərçivəsində tibbi yardım almaq hüququnu təmin edən sistemdir. Azərbaycan Respublikasının bütün vətəndaşları sığortaolunandır və icbari tibbi sığortadan istifadə edə bilərlər.

# Xidmətlər Zərfi nədir?

Xidmətlər Zərfi icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlərin toplusudur.

## Xidmətlər Zərfinə aşağıdakı tibbi xidmətlər daxildir

- İlkin tibbi-sanitariya yardımı
- Təcili və təxirəsalınmaz tibbi xidmət
- İxtisaslaşdırılmış ambulator tibbi xidmət
- Fizioterapiya xidməti
- Laboratoriya xidməti
- İnvaziv radioloji xidmətlər (angioqrafiya)
- Cərrahi tibbi xidmətlər
- Stasionar terapevtik tibbi xidmətlər

*Sığortaolunan – sağlamlığı icbari qaydada sığortalanmış fiziki şəxs

Xidmətlər Zərfi ilə tanış olmaq üçün **QR kodu** oxudun

# Kimlər icbari tibbi sığorta haqqı ödəyir?

<table>
<tr><th colspan="5">Dövlət və neft sektorunda/qeyri-dövlət və qeyri-neft sektorunda çalışanlar üçün müəyyən edilən icbari tibbi sığorta haqqı</th></tr>
<tr><td colspan="2">İşəgötürən</td><td colspan="2">İşçi</td><td rowspan="2">Dövlət büdcəsindən təqvim ili üçün adambaşına ayrılan vəsait</td></tr>
<tr><td>2%<br>aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 ₼-a qədər olan hissəsindən</td><td>0,5%<br>aylıq hesablanmış əməyin ödənişi fondunun 8000 ₼-dan yuxarı olan hissəsindən</td><td>2%<br>işçinin əməkhaqqısının 8000 ₼-a qədər olan hissəsindən</td><td>0,5%<br>işçinin əməkhaqqısının 8000 ₼-dan yuxarı olan hissəsindən</td></tr>
</table>

## Nümunə

1 İşəgötürən işçiyə aylıq 500 ₼ əməkhaqqı müəyyən edib. Belə ki, işəgötürən işçi üçün həmin məbləğin 2%-i həcmində, aylıq 10 ₼ (500*2%=10) icbari tibbi sığorta haqqı ödəyəcək.

2 İşəgötürən işçiyə aylıq 8500 ₼ əməkhaqqı müəyyən edib. Bu halda 8000 ₼-ın 2%-i, yəni 160 ₼ (8000*2%=160), qalan 500 ₼-ın isə 0.5%-i, yəni 2.5 ₼ (500*0.5%=2.5) icbari tibbi sığorta haqqı hesablanır. Nəticədə işəgötürən işçi üçün aylıq 162.5 ₼ icbari tibbi sığorta haqqı ödəyəcək.

3 İşçinin aylıq əməkhaqqısı (əlavə, mükafat və s. daxil olmaqla) 500 ₼-dır. Bu halda onun əməkhaqqısından 2%, yəni aylıq 10 ₼ (500*2%=10) icbari tibbi sığorta haqqı tutulacaq.

4 İşçinin aylıq əməkhaqqısı (əlavə, mükafat və s. daxil olmaqla) 8500 ₼-dır. Bu zaman 8000 ₼-ın 2%-i, yəni 160 ₼ (8000*2%=160), qalan 500 ₼-ın isə 0.5%-i, yəni 2.5 ₼ (500*0.5%=2.5) icbari tibbi sığorta haqqı hesablanır. Nəticədə işçinin əməkhaqqısından aylıq 162.5 ₼ icbari tibbi sığorta haqqı tutulacaq.

# Kimlər icbari tibbi sığorta haqqı ödəyir?

<table>
<tr><th colspan="3">Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər* üçün müəyyən edilən icbari tibbi sığorta haqqı</th></tr>
<tr><td colspan="2">Xidmətə cəlb edən şəxs</td><td rowspan="2">Dövlət büdcəsindən təqvim ili üçün adambaşına ayrılan vəsait</td></tr>
<tr><td>2%<br>aylıq gəlirin 8000 ₼-a qədər olan hissəsindən</td><td>1%<br>aylıq gəlirin 8000 ₼-dan yuxarı olan hissəsindən</td></tr>
</table>

## Nümunə

1. Şəxs aylıq 500 ₼ gəlir əldə edir. Bu halda onun gəlirindən 2%, yəni aylıq 10 ₼ (500*2%=10) icbari tibbi sığorta haqqı tutulacaq.

2. Şəxs aylıq 8500 ₼ gəlir əldə edir. Bu zaman 8000 ₼-ın 2%-i, yəni 160 ₼ (8000*2%=160), qalan 500 ₼-ın isə 1%-i, yəni 5 ₼ (500*1%=5) icbari tibbi sığorta haqqı hesablanır. Nəticədə şəxs gəlirindən aylıq 165 ₼ icbari tibbi sığorta haqqı ödəməlidir.

Mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslər üzrə icbari tibbi sığorta haqqını onları xidmətə cəlb edən şəxslər ödəyirlər. Bu əhali qrupu üçün icbari tibbi sığorta haqqı xidmətə cəlb edən şəxs tərəfindən hər ay üçün hesablanır və ödəmə mənbəyindən tutulmaqla sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

Sifarişçi ilə xidməti müqavilə bağlayaraq müvafiq iş və xidmətləri yerinə yetirən VÖEN sahibləri mülki-hüquqi xarakterli müqavilələr əsasında işləri və ya xidmətləri yerinə yetirən fiziki şəxslər hesab edilirlər.

# Kimlər icbari tibbi sığorta haqqı ödəyir?

| Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün müəyyən edilən icbari tibbi sığorta haqqı | |
|---|---|
| **Fiziki şəxs** | Dövlət büdcəsindən təqvim ili üçün adambaşına ayrılan vəsait |
| **4%** minimum aylıq əməkhaqqından | |

## Nümunə

Hazırda ölkədə minimum aylıq əməkhaqqının məbləği 300 ₼-dır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər həmin məbləğin 4%-i, yəni aylıq 12 ₼ (300*4%=12) icbari tibbi sığorta haqqı ödəməlidirlər.

Ölkədə minimum aylıq əməkhaqqının məbləği dəyişdiyi zaman nümunədəki aylıq icbari tibbi sığorta haqqı da ona müvafiq olaraq dəyişəcək. Bu şəxslər üzrə icbari tibbi sığorta haqqı hər ay üçün hesablanır və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

Sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların müvəqqəti dayandırıldığı hallar istisna olmaqla, vergi ödəyicisi kimi vergi uçotuna alınmış fiziki şəxslər (fərdi sahibkarlar, xüsusi notariuslar, Vəkillər Kollegiyasının üzvləri) minimum aylıq əməkhaqqının 4%-i məbləğində icbari tibbi sığorta haqqı ödəməlidirlər.

Əgər şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, onun VÖEN-i varsa nümunədə qeyd edilən məbləğdə icbari tibbi sığorta haqqı ödəməlidir.



## Kimlər icbari tibbi sığorta haqqı ödəməkdən azaddır?

Heç bir yerdə əmək və ya mülki müqavilə əsasında işləməyən, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan şəxslər icbari tibbi sığorta haqqı ödəməkdən azaddır. Həmin şəxslərin icbari tibbi sığorta haqlarını dövlət ödəyir.

## İki və ya daha çox yerdə işləyən şəxslər hər iş yeri üzrə icbari tibbi sığorta haqqı ödəməlidir?

Bəli. İki və ya daha çox yerdə işləyən şəxslər hər iş yeri üzrə icbari tibbi sığorta haqqı ödəməlidir.





## Sığortaolunanlar hansı tibb müəssisələrində tibbi xidmət ala bilərlər?

Sığortaolunanlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan dövlət tibb müəssisələrində tibbi xidmətlərdən istifadə edə bilərlər. Həmin tibb müəssisələrində müvafiq xidmətin göstərilməsi mümkün olmadıqda vətəndaşa xidmət əldə etməsi üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə müqaviləsi olan özəl tibb müəssisələrinə göndəriş verilir.

TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrinin və müqaviləli tibb müəssisələrinin siyahıları Agentliyin **www.its.gov.az** rəsmi internet səhifəsində yerləşdirilib.